

# Sənəm SƏBAYEL

Amansız ölüm qələm yoldaşımız Sənəm Səbayeli aramızdan apardı.

Sənəm Nəcəb qızı Səfərova 1956-cı il noyabrın 10-da Ağstafa rayonunun Kirovka kəndində anadan olmuşdur. 1974-cü ildə həmin kənddə orta məktəbi bitirib. 1979-cu ildə Bakı Mədəni-maarif Texnikumuna daxil olmuş, 1981-ci ildə orta ixtisas təhsilini tamamlamışdır. Əmək fəaliyyətinə 1975-ci ildə Beyləqan qəsəbə mədəniyyət evində bədii rəhbər kimi başlamışdır. 1979-1981-ci illərdə Beyləqan rayon Milabad qəsəbəsi mədəniyyət evinin direktoru, 1982-1996-cı illərdə Bakı Şin zavodunda laboratoriya rəisi, 1996-2003-cü illərdə C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında truppa rəhbəri vəzifələrində işləmişdir. Bədii yaradıcılığa erkən başlasa da, əsərlərini ədəbi ictimaiyyətə ötən əsrin 90-cı illərində təqdim edib. Lirik, ictimai motivli şeirlər müəllifi kimi tanınır. Yaradıcılığında Qarabağ mövzusuna geniş yer verib. Qələmini nəsrdə də sınayıb, povest və hekayələrdən ibarət "Şahanə" adlı kitabı maraqla qarşılanıb.

İstedadlı qələm yoldaşımız, səmimi, təvazökar insan Sənəm Səbayelin işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 14 may.- S. 32.**